**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU**

№: DNF/1/1-1078 «11» Dekabr 2018

**Hörmətli cənablar,**

*Hasilat Sənayesi üçün Benefisiar Sahibin Tərifi barədə Məsləhətləşmə*

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən Azərbaycan Respublikasının hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya (bundan sonra – Komissiya) yaradılmışdır.

Komissiya yarandıqdan sonra, Azərbaycan hökuməti Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına dair Yol Xəritəsinin (BSAYX) həyata keçirilməsi məqsədilə Asiya İnkişaf Bankından (AİB) dəstək istəmişdir. Bu məqsədlə AİB BSAYX-nı tətbiq edən qurum olan Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) bu layihədə dəstək olması üçün məsləhətçi şirkət qismində "BDO Azərbaycan" MMC-ni (BDO) cəlb etmişdir.

Məsləhətçilər Azərbaycanın hasilat sənayesi üçün benefisiar sahiblik tərifi üzrə təklifləri hazırlayıblar. Təklif olunan tərif Benefisiar Sahibin Tərifi Layihəsi barədə hesabatda hərtərəfli müzakirə olunub. Sözügedən hesabat, "Benefisiar sahiblik məlumatlarının açıqlanması sistemləri barədə qabaqcıl beynəlxalq təcrübə" hesabatı ilə yanaşı https://www.oilfund.az/fund/relations/ownership ünvanından əldə oluna bilər.

Benefisiar sahibliyin razılaşdırılmış tərifinin qəbul edilməsi məqsədilə, Komissiyaya təklif olunan benefisiar sahibliyin tərifi üzrə maraqlı tərəflərin fikirlərini toplamaq üçün məsləhətləşmə prosesini həyata keçirir. Bu məsləhətləşmənin nəticəsi tərifin qəbul edilməsi üzrə qərar qəbuletmə prosesində əhəmiyyətli faktor olacaq. Bu məqsədlə, ARDNF BDO şirkətindən məsləhətləşmə prosesini Komissiyanın adından idarə etməyini xahiş etmişdir.

Sizi Məsləhətləşmə Sənədini oxumağa və sorğu anketini (hər ikisi əlavə olunur) tamamlamağa dəvət edirik. Məsləhətləşmə Sənədi bugünkü tarixə olan nəticələri və təklif olunan benefisiar sahibliyin tərifini vurğulayır. Tamamlanmış sorğu anketini 25 yanvar 2019-ci il tarixinədək beneficial.ownership@bdo.az elektron poçt ünvanına (surətini bbayramov@oilfund.az elektron poçt ünvanına) göndərməyinizi Sizdən xahiş edirik.

Sorğunu tamamlayan şəxs öz adını, vəzifəsini və qurumunu qeyd etməlidir. Təəssüf edirik ki, anonim sorğu anketləri nəzərə alınmayacaq. Təqdim edilmiş sorğu anketlərinin məxfiliyi təmin *ediləcəkdir. Bu vacib mövzu üzrə sorğuya dair cavablarınızı gözləyirik.*

Komissiya bu məsləhətləşmə prosesinin nəticələrini 2019-cu ilin 13 fevral tarixində Bakıda keçirilməsi planlaşdırılan tədbirdə açıqlayacaq. Tədbirdə qeydiyyat üçün ətraflı məlumat münasib bir vaxtda göndəriləcək. Tədbir həmçinin tərif ilə bağlı sualların verilməsi və müzakirədə iştirak etmək üçün fürsət olacaq.

**Hörmətlə,**

**Hasilat Sənayesində Şəffaflıq üzrə**
**Komissiyanın sədri** **Şahmar Mövsümov**

AZ1029, Azərbaycan, Bakı, H.Əliyev Pr. 165 | +994 12 498 7753 | office@oilfund.az